# Ölkəmizə gələn turistlərin sayı ildən-ilə artır

**Dövlət Turizm Agentliyindən aldığımız məlumatda bildirilir ki, 2018-ci ilin 8 ayında Azərbaycana 2 milyon xarici vətəndaş səfər edib, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 85 faiz çoxdur.**

Təkcə bu ilin avqust ayında ölkəmizə gəlmiş xarici vətəndaşların sayı ötən ilin avqust ayı ilə müqayisədə 4,7 faiz artaraq 320 minə çatıb. Bu ilin avqust ayında Azərbaycana gəlmiş 20,3 min iranlı keçən ilin avqust ayında gələnlərdən (39,5 min nəfər), təqribən 2 dəfə azdır. Ümumiyyətlə, 2018-ci ilin 8 ayında ötən ilin 8 ayına nisbətən respublikamıza gələn iranlıların sayı 250 mindən 186 minə düşüb. Bununla belə, İrandan gələn turistlərin axınının azalması Yaxın Şərq və Asiya ölkələrindən gələnlərin sayının ciddi şəkildə artması ilə qismən kompensasiya edilib. 2017-ci illə müqayisədə Yaxın Şərqdən gələn vətəndaşların sayı avqust ayında 25 faiz, 2018-ci ilin 8 ayında isə 46 faiz artaraq 195 mindən 284 minə çatıb. Ən yüksək artım İraq (19,2 faiz), Bəhreyn (142 faiz), Küveyt (123,9 faiz), Qətər (86,9 faiz) və İsraildən (240,7 faiz) gələn səyahətçilər arasında müşahidə olunub. Asiya ölkələrindən gələnlərin sayı avqust ayında 68 faiz, 2018-ci ilin 8 ayında isə 59 faiz artıb, yəni 86 mindən 136 minə qalxıb. Ən yüksək artım Hindistan (210,1 faiz), Pakistan (181,6 faiz), Türkmənistan (75,6 faiz) və Çindən (57 faiz) gələn əcnəbilər arasında müşahidə edilib.

Tarixi baxımdan Azərbaycan üçün ən böyük bazarlar Rusiya, Gürcüstan, İran və Türkiyə olub. Avqust ayında Rusiyadan təqribən 3 faiz, 2018-ci ilin 8 ayında isə ümumilikdə 623 min olmaqla 5 faiz daha çox səyahətçi gəlib. Daha yüksək artım Gürcüstandan gələnlər arasındadır. Belə ki, burada avqust ayında artım 16 faiz, bu ilin 8 ayında isə 10 faiz təşkil edir. Səyahətçilərin sayı 2018-ci ilin müvafiq dövründə 2017-ci illə müqayisədə 350 mindən 385 minə yüksəlmişdir. Türkiyədən gələnlərin sayı avqust ayında 13 faiz aşağı düşüb, lakin 2018-ci ilin 8 ayında 2017-ci ilin göstəricisi olduğu kimi qalıb.

Rusiya, Gürcüstan və Yaxın Şərqdən gələn turistlərin sayı 2018-ci ilin müvafiq müddətində Azərbaycana gələn səyahətçilərin ümumi sayının 66 faizini təşkil edir.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**

Respublika.- 2018.- 29 sentyabr.- S. 4.